iki sahil
www.ikisahil.az / www.ikisahil.tv

ORTAQ KEÇMİŞDƏN ORTAQ GƏLƏCƏYƏ

ÇARİZMİN İŞĞALÇILIQ SİYASƏTİ ÜMUMTÜRK TARİXİ KONTEKSTİNDƏ

⇨ Əvvəli ötən saylarda

Qızıl Orda və ondan törəmə tatar xanlıqları

(tarixi-etnoqrafik oçerklər)

Qızıl Orda ziyalılarının farsdilli klassik ədəbiyyatdan xəbərdar olduğunu da əminliklə söyləmək mümkündür. 1341/42-ci illərdə "Xosrov və Şirin" məsnəvisini qələmə alan (bu mənzumə bəzən tərcümə, bəzən orijinal təlif-təbdil kimi qələmə verilir) Qütb adlı (təxəllüslü?) şair, əvvəlcə Sarayda yaşamış, sonra isə Misir Məmlükləri dövlətinin ərazisinə köçmüş və orada da türk mədəni arealında daxili harmoniyanın möhkəmlənməsinə xidmət göstərmişdir. Müəllif elə məsnəvinin başlanğıcındaca Nizami Gəncəvinin eyniadlı poemasından bəhrələndiyini bildirir:

Kazan teg kaynap oş suda pişirdim
Nizami balıdan helva pişirdim.

Türk-İslam ədəbiyyatı tarixində əhəmiyyətli yer tutan bir çox poetik əsərlərin Qızıl Ordada yaradılması burada bədii yaradıcılıq üçün əlverişli mühitin hökm sürdüyünə dəlalət edir. Xocəndinin "Lətaifnamə" (yazıldığı il məlum deyil), Hüsam Katibin "Dastani-Cümcümə sultan" (1368/69), Seyf Sarayinin (1321-1391) "Süheyl və Güldursun", "Kitabi-Gülüstan bit-türki" ("türkcə "Gülüstan" tərcüməsi", 1391) əsərləri yüzillərin sınağından çıxaraq günümüzə qədər gəlib çatmış möhtəşəm söz və sənət abidələridir.

Seyf Sarayinin "Kitabi-Gülüstan bit-türki" əsəri fars ədəbiyyatı klassiki Sədi Şirazinin məşhur "Gülüstan" poeması əsasında yazılıb. Geniş yayılmış qənaətə əsasən, şair "Gülüstan tərcüməsi"ni qələmə almağa Qızıl Ordada- Sarayda başlamış, Misirdə, türk Məmlüklər dövlətində bitirmişdir. Didaktik-nəsihətnamə səciyyəsi daşıyan məsnəvidə ənənəvi ictimai və ailə münasibətlərindən söz açılır, xeyir və şər, həqiqət və yalan, hökmdar-rəiyyət, valideyn-övlad, dostluq və qardaşlıq kimi mövzulara dair hakim baxışlar şərh olunur.

Xarəzminin 1353-cü ildə Canıbəy xanın əmirlərindən Honrad Məhəmməd Xocanın adına bağladığı "Məhəbbətnamə" məsnəvisi sonradan "Çağatay ədəbiyyatı" adlandırılan zəngin türk poetik irsinin təməl əsərlərindən sayılır. Durbəyin Şərq ədəbiyyatının ən məşhur motivləri zəminində nəzmə çəkdiyi "Yusif və Züleyxa" poemasının Qızıl Orda ərazilərində geniş kütləvilik qazanması da təsadüfi sayılmamalıdır.

Qızıl Orda ərazilərində şifahi xalq ədəbiyyatı coşqun inkişaf edir və milli şeirin forma və məzmunca zənginləşməsini şərtləndirirdi. Xalq aşıqlarından (akın) Asan Kayğu (bəzən Həsən Qayğılı kimi təqdim olunur) və Kaztuğan jıraunun qoşma və gəraylını xatırladan populyar şeirləri, "Yedigey" eposu, Ötəmiş Hacının (XVI əsr) "Çingiznamə"si sadə xalqın mədəni həyatının başlıca istiqamətlərini əks etdirir. Həsən Qayğılının əsərlərində region xalqlarının eyni soykökə mənsubluğu haqqında bəhs açılması xüsusi maraq doğurur: "Noğay, kazak, başkurt - tubimiz bir, Altay, Ertiş, Oralnı-kıdırğanmız" (Noqay, qazax, başqırd - kökümüz birdir. Altay, İrtış və Ural çöllərində köç etmişik). Təsadüfi deyil ki, xalq aşığının şeirləri bu gün də noqaylar, qazaxlar, qaraqalpaqlar, başqırdlar, kumıklar, qırğızlar, Krım türkləri arasında dillər əzbəridir.

Qızıl Orda ədəbiyyatında mənzum və mənsur əsərlər, təxminən eyni xüsusi çəkiyə malikdir. Mütəxəssislər nəzmlə yanaşı nəsrin də populyarlığını qeyd edirlər. Əli oğlu Mahmud əl-Bulqari əl-Kərdarinin (bəzi mənbələrdə bu müəllif Mahmud əs-Sarayi əl-Bulqari, bəzən də Xarəzmli bin Əli kimi təqdim olunur) "Nəchül-fəradis"i (Darxan Kıdırəli və Qaybulla Babayarov əsərin adını "Cənnətə aparan yol" deyə açıqlayırlar) dövrün nəsrlə yazılmış şah əsəri sayılır. (Kitabın yaranma tarixi müxtəlif mənbələrdə gah 1342, gah da 1359/ 1360 kimi göstərilir.) Müəllif 40 məşhur hədis seçərək 10 fəsildən ibarət 4 bab şəklində toplamış və bunların hər birinin izahını vermişdir. Əsərdə Həzrəti-Peyğəmbər (s.ə.s.) və səhabələrinin, Xüləfayi-Raşidinin (ilk dörd xəlifənin), üləma və şeyxlərin kəlamları onların həyatına dair rəvayətlərlə əsaslandırılmış, hədislərin izahı üçün Zəməxşəri, İspicabi, İmam Zeynül Firdövsi, Vakidi, İmam Məhəmməd Katib kimi üləmaların kitablarından, eləcə də Əbu Talib Məkkinin "Kutül-kulub"undan məxəz kimi istifadə edilmişdir. Dini elm və biliklərdən son dərəcə məlumatlı olduğu aydın görünən müəllif bu məşhur əsərini İslam əxlaqının və bir sıra şəriət ehkamlarının təbliği məqsədi ilə qələmə almışdır. "Nəchül-fəradis"in birinci babında Həzrəti Peyğəmbərin (s.ə.s.), ikinci babda Xüləfayi-Raşidin və əhli-beytin həyat və fəzilətlərindən danışan hədislər xatırlanır, üçüncü babda müxtəlif əxlaqi məsələlərdən, dördüncü babda isə qəbahətlərdən bəhs olunur.

Darxan Kıdırəli və Qaybulla Babayarovun orta məktəblər üçün bu yaxınlarda tərtib etdikləri "Ortaq türk tarixi" kitabında Qızıl Orda ədəbiyyatına həsr olunan bəhsdə dünya türkologiyasında "Codex Cumanısus" adı ilə məşhur olan sözlük üzərində xüsusi dayanılır. Qeyd olunur ki, bu əsər XIII-XIV əsrlərdə Şimali Qara dəniz sahillərində italyanlar və almanlar tərəfindən toplanmış qıpçaq dili materialları əsasında tərtib edilmişdir və Avropa dillərindən türkcəyə, türkcədən isə Avropa dillərinə ilk tərcümə lüğətidir. Əsərin adı latın dilindən "Kuman/qıpçaq lüğəti" kimi tərcümə olunur. Əsəri şərti olaraq iki hissəyə ayırırlar. Birinci hissənin qıpçaq-fars-latın, ikincinin isə qıpçaq-alman və qıpçaq-latın sözlüklərindən ibarət olduğu bildirilir. Misal kimi xristian dua və psalmlarından qıpçaqcaya çevirmələrin, habelə 47 qıpçaq tapmacasının verilməsi maraq doğurur. Əsərdə qıpçaq dilinin bəzi qrammatik qaydalarına da toxunulub.

Şeyx Şərəf adlı türkmən fəqihi tərəfindən yazıldığı ehtimal edilən "Müinül-mürid" (1313) kitabı da dövrünün kütləvilik qazanmış nəsr əsərlərindəndir. Xarəzmli Əbülqazi Bahadur xan "Şəcəreyi-tərakimə"sində "Müinül-mürid"in yazılma tarixçəsindən söz açmışdır. Onun qənaətincə, salur qəbiləsinə mənsub nüfuzlu bəylərdən olan Ər Sarıbay Ürgəncin məşhur şeyxlərindən Şərəfin yanına gedib, ondan ərəbcə bilməyən köçəri türklərin dini məsələlərdə istinad edə biləcəkləri türkcə bir əsər yazmasını istəmiş və "Müinül-mürid" bu minvalla yaranmışdır. M.F.Köprülü əsərin məzmunca "öyrədici" mahiyyət daşıdığını və əsas etibarilə "iman, mərifətl-haqq, mərifəti-rəsul, namazın ərkanı, əbdəstin fərzləri, köçəriləri çox maraqlandıran heyvan sürüləri zəkatı, faiz məsələlərinə, bir də adabi-süluk və dərvişliyə aid təsəvvüfi mövzulara" həsr olunduğunu vurğulayır: "Anlaşılır ki, müəllif klassik ədəbiyyata və fiqh məsələlərinə vaqif bir alim və sufidir".

"Meracnamə" və "Təzkirətül-övliya" adı ilə üzü dəfələrlə həm uyğur, həm ərəb əlifbası ilə köçürülüb yayılan dini əsərlər, habelə tanınmış müsəlman fəqihlərindən Sədrəddin ət-Təftəzaninin, əl-Bəzzazinin dəyərli hüquq risalələri də eyni dövrə aid nəsr məhsullarıdır.

Qızıl Orda ədəbiyyatı üzrə mütəxəssislər bu zəngin irsin (xüsusən XIV əsrdə) Misirdə yaranan türkdilli ədəbiyyata böyük təsir göstərdiyini də vurğulayırlar ki, bu da əlaqə, inkişaf və səviyyə göstəricisidir. Türk-İslam ədəbiyyatı üçün müştərək səciyyə daşıyan digər bir məqam - ərəb və fars dillərinin yüksək işləklik qazanması Qızıl Orda uluslarında (xüsusilə şəhərlərdə) da özünü göstərir. Görkəmli tatar tarixçisi və mütəfəkkiri Şihabəddin Mərcaninin (1818-1889) yazdığına görə, XII-XVI əsrlər ərzində Bulqar və Qızıl Orda ədib və ruhaniləri ərəb-farsdilli ədəbiyyata dərindən bələd olmaqla yanaşı bu dillərdə çoxsaylı əsərlər də qələmə almışlar. Mərcani bu xüsusda 20-dən artıq müəllif və əsərdən söz açır. Zənnimzcə, həmin risalələrdən yalnız bir neçəsini sadalamaqla, Qızıl Orda ədəbiyyatı haqqında təsəvvürü müəyyən qədər genişləndirərək bu qısa xülasəni yekunlaşdırmaq mümkündür: Şeyx Bürhanəddin bin Xızır əl-Bulqarinin "Kitab üsul-əl-Hüsami" (1360), Şeyx Məhəmməd əl-Bulqarinin "Xəzinət əl-üləma və zinət əl-füqəha" (XIV əsr), Tacəddin İbrahim bin Mühəmmədin "Üsuli-imam Fəxrəl-İslam" (1363/64), Şeyx Nəcməddin əbür-Rica Muxtar bin Məhəmməd əl-Kazani əl-Hənəfi əl-Zahidinin Berke xana təqdim etdiyi "Risaleyi-Nasirə" və s.

QIZIL ORDANIN ZƏİFLƏMƏSİ VƏ SÜQUTU

Qızıl Ordanın tənəzzülə uğraması, parçalanması, onun yerində müstəqil xanlıqların yaranması birdən-birə baş verməmiş, uzun bir dövrü əhatə etmiş və ciddi siyasi, iqtisadi, sosio-mədəni səbəblərlə şərtlənmişdir. Vahid dövlətin süqutuna aparan amillər kimi tarixşünaslıqda təbii kataklizmlərdən (quraqlıq, daşqınlar nəticəsində Aşağı Volqaboyunun su altında qalması, taun epidemiyası və s.) tutmuş xarici-siyasi təsirlərə qədər ən müxtəlif səbəblər sadalanır ki, zənnimizcə, bunların heç birini sərf-nəzər etmək düzgün olmaz. Proses, güman ki, bunların küll olaraq üst-üstə düşməsi və ya növbələşməsi ilə sürətlənmişdir. İlk öncə, əlbəttə, hakimiyyət uğrunda təqribən 20 illik (XIV əsrin 60-70-ci illəri) daxili mübarizələr silsiləsi qeyd olunmalıdır. Özbəy xanın zamanında "qızıl dövrü"nü yaşayan, vahid idarəçilik sistemi daha da təkmilləşən, iqtisadi yüksəlişinin zirvəsinə qalxan, türk-İslam mədəniyyətinin önəmli mərkəzlərindən birinə çevrilən Qızıl Orda Canıbəy xandan sonra uzunmüddətli siyasi qarışıqlıqlar zolağına düşmüş, böhran və çöküş dövrünə ("bulqak dövrü") qədəm qoymuşdur. Bu 20 ildə taxta hərəsi 1-2 ildən artıq səltənət sürməyən 25-dən çox (bəzi tarixçilər bu sayı 50-yə çatdırırlar) xanın gəlməsi faktı mərkəzi hakimiyyətin nə dərəcədə zəifləməsinə parlaq misaldır. Yüz il əvvəl (Noqay dövründə) olduğu kimi yenə ön plana güclü bir əmir (Mamay Mirzə) çıxmış, Tukay Timur sülaləsinin təsadüfi təmsilçilərini taxta oturdaraq onların əli ilə dövləti idarə etmişdir.

1362-ci ildən Qızıl Orda ərazisinin Volqa çayı sərhəd olmaqla iki düşmən cəbhəyə ayrılması təkzibolunmaz faktdır və mənbələrlə təsdiqini tapır. İmperiya ərazisində təxminən belə bir mənzərə görürük. Volqa, Don və Dnepr arasındakı çöllər, Şimali Qafqaz və Krım, tümən bəylərindən Mamayın hakimiyyəti altına düşüb. Paytaxt Saray əl-Cədid və ona bitişik bölgələr isə bununla heç cür barışmır. 1363, 1368 və 1372-ci illərdə Mamay paytaxtı ələ keçirsə də saxlaya bilmir və qarşıdurma daha da dərinləşir, uzumüddətli ikitirəlik ölkəni zəiflədir, mərkəzdənqaçma meylləri güclənir. 1361-ci ildə fürsətdən istifadə edən Xarəzm çoxdankı arzusunu reallaşdırır- müstəqilliyini elan edir və Orda hakimiyyətini tanımadığını bildirir. Beynəlxalq karvan yolları üzərində yerləşən Xarəzmin ayrılması ölkənin iqtisadi qüdrətinə ağır zərbə vurur, Saray xanlarının dayanıqlığını və Mamayın hücumları qarşısında müqavimət gücünü zəiflədir. Qərb sərhədlərində pozuculuq meylləri yenidən baş qaldırır. Hələ 1300-cü ildə macar krallığı Noqayı məğlub edərək Dunay ətrafındakı düzəngahlarda Valaş dövləti yaratmışdı. 60-cı illərdə separatçı qüvvələr yaranmış vəziyyətdən daha yaxşı yararlanırlar. Şimali Karpatda yenicə formalaşmağa başlayan Moldav knyazlığı qarışıqlıqdan istifadə edərək Prut və Dnestr çayları arasındakı torpaqlara sahib çıxır. 1363-cü ildə Litva knyazı Olgerd meydan döyüşündə Orda qoşunlarına qələbə çalaraq, Podolya və Dneprin sağ sahili boyunca yürüşə başlayır. Eyni vaxtda Volqa Bulqar hakimlərindən Bulat-Timur, sonra isə Həsən üsyan bayrağı qaldırır. Mamayın Qızıl Ordaya vurduğu ən ağır zərbə isə ruslarla mübarizədə ilk dəfə ağır məğlubiyyətə uğraması sayılır. İmperiyanı bürümüş parçalanma və özbaşınalığı fürsət bilən Moskva böyük knyazı Dmitri İvanoviç (Donskoy) 1374-cü ildə xərac verməkdən imtina edir, rus-pravoslav kilsəsinin, şəxsən nüfuzlu mitropolit Serqiy Rodonejskinin xeyir-duasını alaraq 16 udel knyazlığını öz ətrafında birləşdirir, Litva ilə də ittifaqa girib ölüm-dirim savaşına qalxır. 1377-1378-ci illərdə aparılan mövqe döyüşlərində üstünlük əldən-ələ keçsə də, 1380-ci il sentyabrın 8-də Kulikovo çölündə baş verən həlledici döyüş rus qoşunlarının qələbəsi ilə başa çatır. Rus ədib və salnaməçiləri əsrlər boyu bu qələbənin milli və dini əhəmiyyətini tərənnüm edir, Orda boyunduruğundan qurtuluşun əldə olunmasında birlik və bütövlük amilinin önəmini geniş kütlələrə yayırlar. "Mamayın əzişdirilməsindən bəhs edən hekayət"də, xüsusilə "Zadonşina"da Dmitri İvanoviçin ideal knyaz obrazı milli xilaskar səviyyəsinə qaldırılır. "Zadonşina"da 70 min "zireh geymiş cəsur litvalının" da ruslarla birgə döyüşdüyü qeyd edilir. Əsərin bədii dəyərini artıran xüsusiyyətlərdən biri də Mamay ordularının ruslara qarşı qətiyyətlə döyüşməsinin vurğulanmasıdır. Məlum olur ki, "Allahsız Mamay (belə ifadələr Qızıl Ordaya patoloji nifrəti hər fürsətdə körükləyən rus salnamə və tarixnamələri üçün xarakterikdir-N.M.) 250 min nəfəri qılıncdan keçirdi". "Zadonşina"da "Vətən və din yolunda" canlarından keçmiş rus boyarları belə xatırlanır: "Böyük knyaz Dmitri İvanoviç dedi: "Qardaşlarım, bir sayın görək nə qədər sərkərdəmiz, nə qədər cavanlarımız yoxdur?" Moskva boyarlarından Mixaylo Aleksandroviç ona belə cavab verdi: "Ağamız böyük knyaz Dmitri İvanoviç! Bizim 40 nəfər böyük Moskva boyarımız, 12 Belozersk knyazımız, 30 nəfər Novqorod canişini, 20 nəfər Kolomensk boyarı, 40 Serpuxov boyarı, 30 litvanı pan, 20 nəfər Pereslavsk boyarı, 25 Kostroma boyarı, 35 nəfər Vladimir boyarı, 8 nəfər Suzdal boyarı, 40 Muromsk boyarı, 70 Ryazan boyarı, 34 nəfər Rostov boyarı, 23 nəfər Dmitrovsk boyarı, 60 nəfər Mojaysk boyarı, 30 nəfər Zveneqorodsk boyarı, 15 nəfər Uqletsk boyarı artıq sıralarımızda yoxdur".

Bununla belə Qızıl Ordanın məğlubedilməzliyi haqqında mif artıq puç olub, ruslar isə türk-tatar ordusuna qarşı müqavimət göstərməyin, hətta ona qalib gəlməyin mümkünlüyünə inanmağa başlayırlar. Kulikovo məğlubiyyəti imperiyanın varlığı üçün ölümcül təhlükə yaradan amilləri bütün çılpaqlığı ilə üzə çıxarır, birləşdirici təmayülləri müvəqqəti də olsa, gücləndirir. Elə həmin il Göy Ordanın və Saray əyanlarının yardımı ilə xan taxtına çıxan Toxtamış (müxtəlif mənbələrdə onun hakimiyyət dövrünün 1376-1391, 1379-1397, 1380-1395/96-cı illəri əhatə etdiyi bildirilir) ruslardan qorxunc qisas almağa and içir. Əmir Teymurdan da dəstək alan Toxtamış xan əvvəlcə Mamayın üzərinə yeriyərək, onu aradan götürür, qoşunlarını pərən-pərən salır, uluslar üzərində mərkəzi hakimiyyətin sarsılmazlığını bir daha nümayiş etdirir. 1382-ci ildə isə dövlətinin zədələnmiş nüfuzunu yüksəltmək, rusların "ağlını başına yığmaq" məqsədi ilə Moskvaya yürüş edir. Şəhəri yandırıb külə döndərir, əhalinin yarısını qılıncdan keçirir, bununla da kifayətlənməyərək, Ordaya çatası xəracı tam həcmdə geri alır, Dmitri Donskoya biət etdirir, üstəlik onun oğlu Vasilini də girov götürür (Vasili əsirlikdən 7 il sonra, 1389-cu ildə qayıtmışdı). Moskvanı diz çökdürən Toxtamış həm də imperiya sərhədlərinin bərpası üçün böyük işlər görür. Belə bir fikir var ki, əgər Əmir Teymurla münasibətləri pozub, onunla üzücü müharibələrə girməsəydi, Toxtamışın səltənəti dövründə Qızıl Orda itirilmiş ərazilərinə və əvvəlki hərbi-siyasi əzəmətinə qovuşa bilərdi. Lakin tarix, məlum olduğu kimi, felin şərt şəklini qəbul etmir. 1388-1389, 1391 və 1395-1398-ci illərdə Teymur Qızıl Orda üzərinə amansız yürüşlərə çıxıb, onun əsaslarını kökündən sarsıdır. On ildən də artıq bir müddətdə davam edən bu hücumlar zamanı ölkə tar-mar olur, Teymurun qoşunları Saray əl-Cədidi, Belcameni, Ukeki, Həştərxanı, daha bir neçə şəhəri viran qoyur, minlərlə insanı əsir aparırlar. Kütləvi qətl və qırğınlar ara vermir, Göy Orda, Volqaboyu, Şimali Qafqaz, Krım əraziləri talan və qarət edilərək var-yoxdan çıxır. Amansız müharibədən sonra başlayan aclıq, taun epidemiyası, geniş xalq kütlələrinin ölkəni tərk etməsi nəticəsində Qızıl Orda tənəzzülə uğrayır və bir daha özünə gələ bilmir. Cuci oğlu Tukay Timurun sülaləsinin ən qüdrətli təmsilçisi sayılan Toxtamış xan isə Terek çayı üzərindəki döyüşdə həlak olur və tarixə Qızıl Ordanın son böyük xanı kimi düşür. Teymurilərin Qızıl Ordaya vurduğu daha bir ağır zərbə beynəlxalq ticarət yollarının istiqamətini cənuba - Orta Asiya və İrana tərəf döndərmələri olur. XV əsrin ikinci yarısında Balkanlarda möhkəmlənən Osmanlı imperiyası isə Venesiya və Genuya tacirlərinin Qara dənizə çıxışlarını məhdudlaşdıraraq, Ordanı dəniz ticarətindən gələn mənfəətdən də məhrum edir. Sanki geosiyasi proseslər də Cuci və Batı imperiyasının əleyhinə yönəlmişdir.

Teymur qoşunları Orda ərazisini tərk edəndən sonra "taxt eli" Sarayda bir-birini əvəzləyən xanlar arasında şiddətli hakimiyyət qovğaları yenidən alovlanır və uzun müddət səngimək bilmir. Mərkəzi hakimiyyət ucqarları öz iradəsinə tabe etməkdə acizlik göstərir. Belə bir şəraitdə Çingiz soyundan olmasa da, Cuci sülaləsi təmsilçiləri tərəfindən müdafiə edilən Yedigey (bəzi mənbələrdə İdegey) Toxtamışın oğulları ilə amansız müharibədən qalib çıxaraq (1399), ölkənin bütövlüyünü qorumağa cəhd edir. Onun xan olmamasına rəğmən, Qızıl Ordanı 15 il (1396-1411) hökmü altında saxlaya bilməsi xüsusi qeyd edilməlidir. Yedigey siyasi və iqtisadi islahatlar aparmaqla ölkədəki gərginliyi azaltmağa səy göstərir, qısa müddət üçün uğur da qazanır, hətta Litva böyük knyazı Vivoltun ordusunu məğlubiyyətə uğradır (1399), Mavəraünnəhr üzərinə səfərə çıxır (1405), Moskvanı mühasirəyə almaqla (1408) Orda xofunu yenidən yaymağa çalışır. Lakin bunlar, olsa-olsa, zahiri işartılardır: daşıyıcı sütunları çökmüş, sosial dayaqları laxlamış, fəaliyyət mexanizmləri pozulmuş dövləti bərpa etmək artıq mümkün deyildir. 1419-cu ildə (bəzi mənbələrə görə 1420-ci ildə) Toxtamışın oğulları ilə döyüşdə Yedigeyin həlak olması Qızıl Ordanın da sonunu gətirir. Dünyanın ən möhtəşəm imperiyalarından birinin parçalanması artıq qaçılmazdır. Xanlar, sultanlar arasında çatlar nə qədər dərinləşirsə, hakim xanədanın nüfuzu bir o qədər sarsılır və yox dərəcəsinə enir. Oxucunu izafi yükləməmək naminə bundan sonra baş verən proseslərin üstündən keçməyi məsləhət bilirik. Çünki nəticə aydındır.

Qızıl Ordanın geniş ərazilərində siyasi hakimiyyətin vəhdəti pozulur və Noqay Ordası (1398, bəzi mənbələrdə 1440), Sibir (Tümen) xanlığı (1420), Krım xanlığı (1428), Kazan xanlığı (1438), Qasım xanlığı (1552), Həştərxan (Hacıtərxan) xanlığı (1459) kimi bir neçə kiçik dövlətin ayrılması üçün münbit zəmin yaranır. Eyni zamanda, Volqaboyunda Qızıl Ordanın son "zərrə"si (həm də tarixinin son mərhələsi) hesab olunan Böyük Orda (o biri varislər də nəzərə alındıqda bu dövləti "Baş Orda" hesab etmək olar) 1502-ci ilə qədər mövcudluğunu qoruyur ki, bu da mühüm faktdır.

N.MUSTAFA

⇨ Davamı növbəti sayda